# Vida edək SƏNƏTKARa...



■ Aygün Süleymanova
teatrşünas



Bizdə adətdir, insan öləndən sonra daha böyük Sənətkar, daha böyük İnsan, daha böyük Müəllim olur. Halbuki biz bu qiyməti ona sağlığında da verə bilərdik. Xülasə, yeni ilin ilk ayında daha bir teatr və kino xadiminə vida etdik. Lənkəran Dövlət Dram Teatrının aktyoru, Azərbaycan Respublikasının əməkdar artisti, “Tərəqqi” medallı Təvəkkül Əliyev yanvarın 23-də 66 yaşında haqqın dərgahına qovuşdu.

Qısa təqdimat: Təvəkkül Əliyev 21 avqust 1950-ci ildə andan olmuşdu.

1973-cü ildə İncəsənət İnistitutunun dram və kino aktyorluğu fakültəsini bitirdikdən sonra N.B.Vəzirov adına Lənkəran Dövlət Dram Teatrındaaktyor kimi fəaliyyətə başlamışdı. Lənkəran teatrının səhnəsində ilk rolu M.İbrahimovun “Yaxşı adam” pyesindəki Azər obrazı olan T.Əliyev daha sonra N.Xəzrinin “Sən yanmasan”, İ.Əfəndiyevin “Mahnı dağlarda qaldı”, “Unuda bilmirəm”, N.Hikmətin “Bayramın birinci günü”, A.P.Çexovun “Yubiley”, M.İbrahimovun “Kəndçi qızı”, M.Musiyenkonun “Nəsillər, eşidin!”, V.Şekspirin “Qış nağılı”, H.Cavidin “Topal Teymur”, S.Vurğunun “Fərhad və Şirin”, Ə.Haqverdiyevin “Ağa Məhəmməd şah Qacar”, Ə.Əylislinin “Vəzifə” və onlarla digər əsərlərdə Eldar, Nicat, Kamran, Şadi bəy, Xirin, Alman zabiti, Rəşad, Sillerqut, İldırım Bəyazid, Fərhad, Mirzəqulu xan, Əjdər və s. yadda qalan obrazlar yaradıb. O, aktyor fəaliyyəti ilə yanaşı, rejissor kimi teatrın səhnəsində bir sıra tamaşalara quruluş verib, eyni zamanda, rayonda keçirilən mədəni-kütləvi tədbirlərin təşkilində də yaxından iştirak edib. Ömrünü Lənkəran teatrına bağlayan aktyor teatrın aktrisası, Xalq artisti Böyükxanım Əliyevanın həyat yoldaşı idi.

Təvəkkül Əliyevin hələ məktəb illərindən gözəl əl qabiliyyəti olub. O, orta məktəbdə oxuyanda qardaşı Politexnik İnstitutunda dərs deyib. Bu səbəbdən Təvəkkülü də memar görmək istəyiblər. Təvəkkül məktəbdə 10-cu sinifdə oxuyanda öz istəyi ilə Politexnik institutunda birinci kurslarla oturur, onlarla eyni işi görürdü. Hamı elə bilirdi ki, o, bu universitetin tələbəsi və memar olacaq, amma belə olmadı. Gələcəyin aktyorunu içindəki gizli həvəs məktəbi bitirdikdən sonra, 1969-cu ildə Mirzəağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutuna apardı. İlk müraciətdə ona dedilər ki, siz gecikmisiniz, sənəd qəbulu artıq bitib. Təvəkkül Əliyev bundan təsirlənsə də, sənədlərimi heç bir yerə verməyib. 10 gün sonra televiziyada elan verirlər ki, İncəsənət İnstitutuna boş qalan yerlərə yenidən qəbul var. O, böyük həvəslə sənədlərini götürüb gedir... O vaxt aktyorları imtahandan böyük sənətkarımız, xalq artisti Adil İskəndərov keçirirdi. Özünün qeyd etdiyi kimi, “ordan üç 5, bir 4 aldım. Oradan çıxanda mənim sevincimin həddi-hüdudu yox idi. Bu mənim öz istəyimlə oldu. Evdə heç kim mənə mane olmadı, dedilər sənin ürəyin hansı peşəni istəyirsə onu da seç və mən elə birinci il İncəsənət İnstitutunun dramkino aktyorluğu fakültəsinin tələbəsi oldum”.

Mən özümü xöşbəxt aktyor sayıram...

T.Əliyevin 43 il fəaliyyət göstərdiyi teatr, yəni Lənkəran Dövlət Dram Teatrı 1973-cü ildə açılıb. Elə həmən il institutdan təyinatla öz kurs yoldaşları ilə bu teatra gəlib. “Teatr mənim üçün hər şeydir, həyatdır, mənim öz evimdir. Mən konkret olaraq deyə bilərəm ki, mən səhnəsiz yaşaya bilmərəm. Səhnənin elə bir sehri var ki, onu yalnız biz aktyorlar hiss edirik, mən özümü xoşbəxt aktyor sayıram”. Bəli, bunu demək üçün aktyorun çox dəyərli faktları var. Teatrda qoyulan tamaşaların 80 faizində T.Əliyev əsasən baş rollarda çıxış edib. Bu rolların içində Ezop, İldırım Bəyazid, Fərhad, Midiya hökmdarı Astiaq ən yadda qalanlarıdır. Onu da qeyd edim ki, bu gün artıq haqqında keçmiş zamanda danışdığımız aktyorun son rollarından biri Gənc Tamaşaçılar Teatrının baş rejissoru, əməkdar incəsənət xadimi Bəhram Osmanovun quruluş verdiyi “Əsrlərin harayı” tamaşasında Midiya hökmdarı Astiaq idi. Aktyor özü bu rolu haqqında belə danışırdı: “Mən orda Midiya hökmdarı Astiaqı oynayıram. Vətənini, xalqını, torpağını sevən bir insan. Özü də deyir ki, “Mən oğul varisim olmayana qədər taxt-tacımı heç kimə etibar edə bilmərəm”. Başqa bir sitat da gətirim “Allah Midiya xalqını ağa yaradıb, onlara köləlik yaraşmır”. Yəni bu insan daima bu mövqedə olur. Mən bu hökmdarın dövründə yaşamamışam, düzdür? Yalnız filmlərdə görə bilmişəm, amma o yaşantını mən özüm içimdən keçirməliyəm, mən inanmasam siz tamaşaçılar təbii olaraq ona inanmazsınız. Oynadığımız obraz heç də asanlıqla başa gəlmir. Mənə çox sual verirlər ki, siz səhnədə necə ağlayırsız? Ürək yanmasa, gözdən yaş çıxmaz. Ağlamaq sifarişlə olmur. Gərək daxilən aparatı-ürəyi işlədəsən ki, sən o ağrı-acını keçirə biləsən və onu tamaşaçıya düzgün təqdim edə biləsən. Bu günki tamaşaçılarımız da çox tələbkar tamaşaçılardır. Deyir ki, mən buna inanmıram, aktyor düz oynamadı. Düz də deyir. Aktyor səhnəyə çıxanda insan hər şeyi unudur - evi unudur, soyuducunu unudur, hətta sənin 39-40 dərəcə hərarətin olsa belə o sənin yadından çıxır. Səhnəyə çıxırsan, ancaq oynadığın obraz olur, tamaşa bitdikdən sonra tamaşaçı alqışları adamı ayıldır. Onda adam deyir ki, hə mən oynadım”.

T.Əliyevin çox sayda tələbələri var ki, onlar bu gün ən tanınmışlardandır. İstər Bakıda, istərsə də Lənkəranda. T.Əliyev: “Elşən Rüstəmov onlardan biridir, o hazırda Bakıda çox populyar bir aktyordur. Mən Bakıda indi populyarlaşmışam amma o məndən qabaq məşhurlaşıb. Mən onunla fəxr edirəm”.

Aktyorun səhnə fəaliyyəti müddətində oynadığı rolları istər dünya klassiklərindən, istər rus dramaturgiyasından, istərsə də Azərbaycan dramaturgiyasından olsun, hamısını sevgi birləşdirir, sənətə sevgi. T.Əliyev o aktyorlardan idi ki, səhnəni özünün bütün aktyor texnikası ilə fəth edə bilirdi. Və üstə gəl səhnə görünüşü, səs diapozonu və illərin təcrübəsi... T.Əliyev səhnə obrazlarını sanki rəsm əsəri kimi yaradırdı. Təsadüfi deyil ki, o rəsm çəkməyi çox sevirdi. Sanki bu istedad ona yaradacağı personajlar üçün ilkin məşq prosesi kimi gəlirdi.

“Bu alqışlar mənim qiymətimdir”.

Təvəkkül Əliyevun dediyi həmin alqışlar sonuncu dəfə yanvarın 24-də səsləndi.

Mərhum aktyor həmin gün Bakıda Zabrat qəbiristanlığında dəfn edildi.

Allah rəhmət eləsin.

